Layihə
Avropa İttifaqı
tərəfindən
maliyyələşdirilir

RİİB Regional İnkişaf İctimai Birliyi

# AYLIQ BÜLLETEN

DEKABR 2020



# İnklüziv təhsil üzrə məsləhətçinin vəzifələri

İnklüziv təhsilin ümumtəhsil sisteminə inteqrasiyası əlilliyi olan uşaqların əksər hallarda digər həmyaşıdları ilə birgə ümumi təhsil siniflərində eyni milli kurikulum əsasında təhsil alması və öyrənməsini nəzərdə tutur. Bu proses nəticəsində tədricən inklüziv məktəblərə qəbul olunan əlilliyi olan uşaqların sayı artdıqca, xüsusi təhsil məktəblərinə daxil olan uşaqların sayı azalacaq. Bu sistem daxilində bütün uşaqlara yüksək keyfiyyətli təhsilin təmin edilməsi üçün məktəblərə və müəllimlərə dəstək göstərilməlidir. İnklüziv təhsil çərçivəsində xüsusi pedaqoqların təcrübəsindən ən yaxşı şəkildə faydalanmaq üçün onların rolunun yeni formata uyğun şəkildə nəzərdən keçirilməsi tələb olunur. İnklüziv təhsil sistemi daxilində inklüziv təhsil üzrə məsləhətçi rolunu oynayacaq xüsusi pedaqoqların əsas vəzifələri aşağıdakılardan ibarətdir:

- Digər uşaqlarla bərabər əlilliyi olan uşaqların yüksək keyfiyyətli təhsilə çıxışını təmin etmək;
- Məktəblərdə inklüziv, təhlükəsiz, həvəsləndirici və dəstəkləyici öyrənmə mühitinin yaradılmasına dəstək göstərmək.

Əlilliyi olan uşaqların öz təhsil potensialına çatması və ondan tam istifadə etməsi üçün onları müvafiq dəstək və resurslarla təmin etmək məqsədilə, inklüziv təhsil üzrə məsləhətçi ümumtəhsil məktəblərində və zərurət olduqda xüsusi təhsil məktəblərində çalışır. Onlar inkişafın bütün sahələri üzrə uşaqların yaxşı səviyyədə irəliləyişə nail olmasını təmin etmək üçün ümumi təhsil müəllimləri, valideynlər və digər sahələrdən olan mütəxəssislərlə sıx əməkdaşlıq edirlər.

## İnklüziv təhsil üzrə məsləhətçi ilə bağlı ən çox yayılmış yanlış təsəvvürlər

İnklüziv təhsil üzrə məsləhətçi nisbətən yeni funksiyadır. İnklüziv təhsil üzrə məsləhətçinin vəzifə və öhdəlikləri ilə bağlı hələ də bəzi yanlış təsəvvürlər mövcuddur. Elə isə ən çox yayılmış yanlış təsəvvürləri birlikdə nəzərdən keçirək:

***1-ci yanlış təsəvvür:*** Əlilliyi olan uşaqların təhsilinə və təlim nəticələrinə görə cavabdehliyi yalnız inklüziv təhsil üzrə məsləhətçi daşıyır.

Əslində isə əlilliyi olan uşaqların təhsilinə və təlim nəticələrinə görə cavabdehliyi həm inklüziv təhsil üzrə məsləhətçi, həm də sinif müəllimi daşıyır. Müəllimlər bütün uşaqlar üçün faydalı olan öyrənmə fəaliyyətlərinin planlaşdırılması və həyata keçirilməsi üçün əməkdaşlıq edirlər. Onlar hər ikisi təlim nəticələrini qiymətləndirir və zəruri hallarda strategiyaya müəyyən dəyişikliklərin edilməsini planlaşdırırlar.

***2-ci yanlış təsəvvür:*** İnklüziv təhsil üzrə məsləhətçi əlilliyi olan uşaqları sinifdən kənara çıxarıb digər uşaqlardan ayrı şəkildə, onlara fərdi təlim keçirlər.

Əslində inklüziv təhsil üzrə məsləhətçi əlilliyi olan uşağın damğalanmasının qarşısının alınması, onun heç bir ümumi sinif fəaliyyətindən kənarda qalmaması və onun ümumi sinfə "mənsub olma hissi"nin artması üçün ona sinif otağı daxilində dəstək göstərir.

***3-cü yanlış təsəvvür:*** İnklüziv təhsil üzrə məsləhətçi əlilliyi olan uşağın yanında oturur və "kölgə müəllim" funksiyasını icra edir. O, yalnız əlilliyi olan uşaqla məşğul olur və ümumi təhsil müəlliminin verdiyi təlimatları yerinə yetirməsində uşağa kömək edir.

Əslində ümumi təhsil müəllimi və inklüziv təhsil üzrə məsləhətçi növbə ilə bütün sinfə, kiçik qruplara və şagirdlərə fərdi təlimatlar verir və dəstək göstərirlər. Bu, əlilliyi olan uşaqların öz sinif yoldaşları ilə ünsiyyətinə mane olan əngəlləri aradan qaldırır və təcrid olunmanı və stiqmanı azaldır.

***4-cü yanlış təsəvvür:*** Uşaq və Ailə Dəstək Planının hazırlanmasına və idarə edilməsinə görə məsuliyyəti yalnız inklüziv təhsil üzrə məsləhətçi daşıyır.

İnklüziv təhsil üzrə məsləhətçi Uşaq və Ailə Dəstək planının hazırlanması prosesinə istiqamət verə bilər. Lakin Uşaq və Ailə Dəstək Planının hazırlanması və tətbiqi bütün maraqlı tərəflərin müştərək məsuliyyətidir.

İnklüziv təhsil üzrə məsləhətçinin əsas vəzifəsi əlilliyi olan uşaqların digər uşaqlarla bərabər səviyyədə yüksək keyfiyyətli təhsilə çıxışının olmasını təmin etmək və məktəblərdə hər kəs üçün inklüziv, təhlükəsiz, həvəsləndirici və dəstəkləyici öyrənmə mühitinin yaradılmasına dəstək olmaqdır.

Bületten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.

Layihə
Avropa İttifaqı
tərəfindən
maliyyələşdirilir





# "İnklüziv təhsil dəyərlərdən başlayır!" adlı sosial çarx hazırlanıb

Avropa İttifaqının maliyyə dəstəyi ilə "Regional İnkişaf" İctimai Birliyi tərəfindən icra olunan "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi çərçivəsində inklüziv təhsil mövzusunda sosial çarx hazırlanıb "İnklüziv təhsil dəyərlərdən başlayır!" adlı sosial çarxın əsas ideyası inklüziv cəmiyyətin inkişafında əlilliyi olan və olmayan uşaqların birgə fəaliyyətinin vacibliyini vurğulamaq və inklüziv dəyərləri cəmiyyətə aşılamaqdır.

Qeyd edək ki, 2006-cı ildə "Əlilliyi olan şəxslərin hüquqları haqqında" BMT-nin Konvensiyasına qoşulan Azərbaycanda əlilliyi olan şəxslərin hüquqlarının qorunması, onların sosial təminatlarının gücləndirilməsi, reabilitasiyası, cəmiyyətə inteqrasiya imkanlarının artırılması və digər istiqamətlərdə mühüm işlər həyata keçirilir.

"Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi də ölkədə inklüziv təhsil üzrə müəllim hazırlığı və ixtisasartırmaya dəstək olmaqla yanaşı, əlilliyi olan şəxslərə qarşı mövcud streotiplərin aradan qaldırılması, onların bərabərhüquqlu üzv kimi cəmiyyətə inteqrasiyası baxımından əhəmiyyətlidir.

Videonun linki:
https://www.youtube.com/watch?v=rtoe212hbXs

## Azərbaycanda inklüziv təhsil qanunvericiliyi və siyasətinin təhlili ilə bağlı görüş baş tutub.

Avropa İttifaqının maliyyə dəstəyi ilə "Regional İnkişaf" İctimai Birliyi tərəfindən həyata keçirilən "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsi çərçivəsində Azərbaycanda mövcud inklüziv təhsil qanunvericiliyi və siyasətinin təhlili mövzusunda onlayn görüş təşkil olunub.

Görüş inklüziv təhsilə dair Azərbaycan Respublikası qanunvericiliyinin BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasının tələblərinə uyğunlaşdırılması üzrə təkliflərin layihənin hədəf regionlarından olan ictimaiyyət nümayəndələri ilə müzakirəsi məqsədilə keçirilib.

Müzakirələrin sonunda görüş iştirakçılarını maraqlandıran suallar cavablandırılıb, həmçinin inklüziv təhsillə bağlı qanunvericilikdə və siyasətdə mövcud çatışmazlıqların aradan qaldırılması istiqamətində tövsiyələr təqdim olunub.

Xatırladaq ki, layihə tərəfindən aparılan təhlilin əsas məqsədi mövcud qanunvericiliyin güclü və zəif tərəflərinin, eləcə də mövcud boşluqların müəyyən edilməsi, Azərbaycanın ümumtəhsil sistemi çərçivəsində inklüziv təhsilin tətbiqi üçün strateji inkişaf yolunun müəyyən edilməsinə yönəlik tövsiyələrin təklif olunmasından ibarətdir.

# Müəllimlər üçün tövsiyələr

*Bülletenin dekabr buraxılışında Turet sindromu ilə bağlı məlumatları və bu sindromlu uşaqların tədrisi üçün praktik məsləhətləri sizinlə bölüşürük*

Turet sindromunun səbəbi əsasən irsidir. Müdaxilə prosedurları var, lakin xroniki xəstəlik kimi müalicəsi yoxdur. Bu, çox mürəkkəb vəziyyətdir, onu hərəkətin pozulması, nevroloji vəziyyət və ruhi-əsəb vəziyyəti kimi təsvir etmək olar. Bu, həyatın bütün aspektlərinə, o cümlədən təhsilə təsir edir. Turet sindromunun simptomları səyrimələr, təkrar olunan xroniki və qeyri-ixtiyari hərəkətlər və səslərdir. Turet sind romlu şəxs bir müddət onları nəzarətdə saxlasa da, sonra səyrimələr yenidən əmələ gəlir. Səyrimələr adətən 7 yaşından meydana gəlir və çox güman ki, ömürboyu davam edir, lakin yeniyetməlik dövrünün sonunda azalır.

Birinci simptomlar adətən sifətdə yaranır, gözlər tez-tez qırpılır və yaxud ağız dartılır. Turet sindromu boğaz təmizləmə, iyləmə və ya hərəkət və səs səyrimәsindən başlaya bilər. Hətta bir nəfərdə müxtəlif səyrimələr ola bilər:

- Simptomlar artır və azalır, zaman-zaman yaxşılaşır və ya pisləşir.
- Simptomlar dəyişir – bir səyrimə dayanır və digəri başlayır.
- Simptomlar stres və narahatlıqdan arta bilər.
- Simptomları dincəlmə və maraqlı məşğuliyyətlə yüngülləşdirmək olar.

*Turet sindromlu uşaqların tədrisi üçün praktik məsləhətlər*

Əgər sinfinizdə Turet sindromlu uşaq varsa, o zaman siz dərs zamanı çevik təlim üsulundan istifadə edə bilərsiniz:

- Dərsin gedişatında cütlərlə iş və qrup işindən istifadə edin;
- Sinifdə səmimi, öyrənməyə əlverişli şərait yaratmağa çalışın;
- İmtahan və testlərlə əlaqədar stresi azaldın;
- Tədris zamanı tez-tez qısa müddətli fasilələr edin;
- Turet sindromlu uşaqlara səyrimələrinin yüngülləşməsi üçün təhlükəsiz yerlər təşkil edin.

**Mənbə:** Müxtəlifliyin dəstəklənməsi: İnklüziv və öyrənmə üçün əlverişli mühitin yaradılması üzrə vəsait dərsi (Xüsusi kitabça 3)

https://www.inkluzivtehsil.az/book/17.html



Bületten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.